# AZƏRBAYCAN DİLİ FƏNN KURİKULUMUNUN ELMİ-METODİK ƏDƏBİYYATLARDA ARAŞDIRILMASI



UOT 81 – 37

**ƏLƏKBƏRLİ AYSEL XƏQANİ QIZI**

*Sumqayıt Dövlət Universitetinin Filologiya fakültəsi Azərbaycan dilinin tədrisi, metodikası və metodologiyası ixtisası üzrə II kurs magistrantı*

**Açar sözlər:** kurikulum, dil, problem, metodika, ədəbiyyat
**Ключевые слова:** курикулум, язык, проблема, метод, литература
**Keywords:** curriculum, language, problem, method, literature

Ümumtəhsil məktəblərində aparılan Kurikulum islahatı bütün fənlərin, o cümlədən Azərbaycan dili fənninin məzmunca yenidən işlənməsinə gətirib çıxardı. Təhsilin hər bir səviyyəsində (ibtidai, orta və tam orta təhsil) gözlənilən ümumi nəticələr fonunda konkret siniflər üzrə standartlaşdırılmış bacarıqların verilməsi fənnin məzmununu müəyyənləşdirməyə və təlim prosesini şagirdlərin dil və nitq fəaliyyətinə müvafiq istiqamətlər üzrə qurmağa imkan yaradır. Təcrübə göstərir ki, dilin daxili quruluşu ilə bağlı linqivistik bilik və bacarıqların formalaşdırılmasını önə çəkən ənənəvi təlimdən fərqli olaraq fəal təlimdə işlənilmiş bu məzmun şagird nitqinin fəaliyyət növlərinə uyğun inkişafına və praktik mahiyyət daşıyan ən zəruri dil faktlarının mənimsədilməsinə yönəldilib. Beləliklə, dilə yiyələnmə şagirdin oxu və ya müşahidə vasitəsilə öyrəndiklərini, düşündüklərini şifahi və yazılı şəkildə ifadə etmə, başqaları ilə ünsiyyət qurma bacarıqlarının sinifdən-sinifə təkmilləşdirilməsini son nəticə olaraq isə nitq mədəniyyətinin formalaşmasını həyata keçirir.

Azərbaycan dili fənninin məzmunun dəyişdirilməsi fənnin tədrisində ciddi dəyişikliklər yaratdı. Ənənəvi təlimlə dərs keçən müəllimlər, fənn kurikulumunun mahiyyətini dərk etməkdə çətinlik çəkdilər. Bu baxımdan Azərbaycan dili fənn kurikulmunun elmi-metodik ədəbiyyatlarda araşdırılması vacib məsələlərdən birinə çevrildi. Metodistlərdən professor Y.Kərimov, A.Balıyev, A.Paşayev, R.Əşrəfov, N.Cəfərova, Ş.Nəbiyeva, F.Əliyeva, Ü.Məmmədova, E.Cəfərova və s. Azərbaycan dili fənn kurikulumunu elmi zəmində tədqiq etmişlər.

Qeyd edək ki, Azərbaycan dili fənn kurikulumunu mənimsətmək üçün fəal-interaktiv təlimə bələd olmaq mütləqdir. A.Süleymanovanın "Təhsilin əsasları" dərsliyində

bugünki təhsilin əsasları, mahiyyəti, kurikulumun bütün apektləri ətraflı şəkildə şərh olunmuşdur. Bu baxımdan dərslik kurikulumun öyrənilməsi üçün dəyərli mənbədir. Dərslikdə "Müasir təlim necə olmalıdır?", "Fəal-interaktiv təlim nədir?", "Fəal dərs necə qurulmalıdır?" suallarına rahatlıqla cavab tapmaq mümkündür. "Milli kurikulum" konsepsiyasının tətbiqi ilə ümumtəhsil məktəblərində fənlərin tədrisinin səmərəli olması üçün interaktiv təlim metodlarından istifadə olunur. Professor A.Paşayev interaktiv təlim metodlarını araşdırmış və "Azərbaycan dili və ədəbiyyat dərslərində interaktiv təlim metodlarının tətbiqi imkanları" dərsliyini hazırlamışdır. Bu gün təlimdə bərabərlik əsas pedaqoji prinsiplərdən biridir. Bu bərabərliyə isə təkan verən əsas amillərdən biri təlimdə interaktiv metodlardan istifadədir. Belə ki, müəllim istifadə etdiyi maraqlı üsullarla şagirdlərdə təlimə maraq oyadır, bütün şagirdlərin diqqətini dərsə cəlb edə bilir. Bu baxımdan prof.A.Paşayev interaktiv təlim metodlarının səciyyəvi xüsusiyyətlərini aşağıdakı kimi qeyd etmişdir:

- Müəllimin şagirdlə və şagirdlərin biri-biri ilə əməkdaşlığı;
- Şagirdlərin sinifdə qeyri-ənənəvi yerləşdirilməsi;
- Şagirdlərin aktiv fəaliyyəti;
- Didaktik oyunlardan istifadə olunması [23,5].

Müəllifin fikrinə istinadən deyə bilərik ki, interaktiv təlim metodları təlimdə eyniliyi ardan qaldırır və təlimin həm aktiv, həm də maraqlı qurulmasını təmin edir. Təlim prosesində interaktiv təlim metodlarından istifadə olunması mövzu ilə bağlı şagirdlərə daha çox bilik, bacarıq və vərdişlər aşılamaq imkanı yaradır. Azərbaycan dili fənninin tədrisi prosesində BİBÖ, söz assosiasiyaları, müzakirə, Venn diaqramı, auksion, klaster problemli vəziyyət interaktiv təlim metodlarından istifadə etməklə qarşıya qoyulan təlim nəticələrini əldə etmək mümkündür. Dos.Pəri Paşayeva "Yeni təlim metodlarından istifadə zamanı müəllimin fəaliyyəti" məqaləsində bu problemi ətraflı şəkildə şərh etmişdir. Müəllif qeyd edir ki, müəllim tərəfindən seçilən təlim metodu şagirdlərdə problemli məsələləri həll etməyə tələbat oyatmalı, onlara fikirləşməyi öyrətməlidir. Bu zaman müəllim şagirdlərin yaşını, bilik səviyyəsini, qavramasını nəzərə almaqla məktəbin maddi bazasını və özünün şəxsi hazırlığını da nəzərə almalıdır [82].

Metodist alim R.Əşrəfov Azərbaycan dili fənn kurikulumunda ümümləşdirici dərslərin məktəb təcrübəsində təşkili vəziyyəti haqqında geniş tədqiqat işi aparmışdır. Bu məsələ müəllifin 2017-ci ildə nəşr etdirdiyi "Azərbaycan dili tədrisinin aktual problemləri" dərs vəsaitində ətraflı şərh olunmuşdur. Müəllif qeyd edir ki, hər cür təkrar ümumiləşdirici dərs demək deyildir. Azərbaycan dili fənnin tədrsində ümümiləşdirici dərslərin praktik istiqaməti güclənməlidir [43,2], yəni dil təlimində ümumiləşdirici dərslərin təşkilinə ciddi yanaşılmalı və təkrarçılıq üzərində qurulmamalıdır. Məlumdur ki, kurikulum proqramı V-IX sinif dərsliklərində bu məqsədlə hər bir bölmənin sonunda sual və tapşırıqlar verilmişdir. V-IX siniflərdə ümumiləşdirici dərslərin təşkili vəziyyəti aşağdakı şəkildə müəyyən edilmişdir:

V sinif- 6 saat, 98 çalışma
VI sinif-6saat, 79 çalışma
VII sinif-6 saat, 67 çalışma
VIII-6 saat, 93 çalışma
IX sinif-4 saat, 154 çalışma

Qeyd edək ki, ümumiləşdirici dərslərin təşikli ilə bağlı dərsliklərdə verilən tapşırıqlar siniflər üzrə tədris olunan bölmələrin sonunda verilmişdir. Bu çalışmalar şagirdləri müəyyən bilik, bacarıq və vərdişlərə yiyələndirməklə bərabər, onları müəyyən praktik fəaliyyətdə nəzəri bilikləri mənimsəməyə yönləndirməlidir. D.Cəfərova, R.İsmayılov, A.Rüstəmova, H.Allahverdi, S.Abdullayeva, Y.Hüseynova, S.Bektaşi, S.Cavadova, S.Məmmədovanın hazırladıqları metodik vəsaitlərdə Azərbaycan dili fənn kurikulumunun məzmunu, təlim starategiyaları, şagird nəaliyyətlərinin qiymətləndəndirilməsi

məsələləri hər sinif üzrə ardıcıl şəkildə şərh olunmuşdur. Azərbaycan dili fənn kurikulumun müəyyən aspektlərinin araşdırılmasında pedaqogika üzrə fəlsəfə doktorları A.Hacıyev, A.Nəbiyeva, A.Qasımov, V.Qurbanov və N.Abdullazədənin xidmətləri təqdirə layiqdir. A.Hacıyev qeyd edir ki, şagirdin sözlə işləmək bacarığı onun dil duyumunun inkişafını təmin etməklə mədəni nitq vərdişlərinin formalaşmasına geniş imkanlar açmış olur [23,3]. Deməli, söz ən mühüm dil vahididir və bizi əhatə edən varlığın əşya və hadisələrini adlandırmaq yolu ilə onun mahiyyətini qavramağa kömək edir.Təlim prosesində tanış olmayan sözlərin, şagirdlər tərəfindən müəyyənləşdirilən yeni sözlərin, yazılışı və deyilişi mənimsəmədə çətinlik yaradan sözlərin möhkəmləndirilməsi üzərində işləməklə və maraq doğuran bəzi sözlərin etimologiyasını açmaqla şagirdlərə dilə həssas münasibəti aşılamaq olar.

N.Abdullazdə "Milli Kurikulum: Azərbaycan dili linqvistik təhlildə" metodik vəsatində Azərbaycan dili üzrə sistematik kurs üzrə materialları sxemlər şəklində şərh etmişdir. Müəllif qeyd edir ki, bu gün sistematik kursda dilin linqvistik xüsusiyyətləri barədə verilən bilik,bacarıq və vərdişlər üçün dərsliyin potensial imkanları kifayət etmir [4,1]. Müəllifin fikrinə əsasən qeyd edək ki, Milli Kurikulum islahatından sonra fəal-interaktiv təlimin tələblərinə uyğun hazırlanan dərsliklərdə verilən dil qaydalarını qənaətbəxş hesab etmək olmaz. Müşahidələr nəticəsində görürük ki, IX və XI sinif buraxlış imtahanına hazırılaşan şagirdlər dil qaydalarını lazımı səviyyədə bilmirlər və repititor yanına getməyə ehtiyac duyurlar. Halbuki, köhnə metodikada istifadə olunan dərliklərdəki dil qaydalarını şagirdlər müstəqil şəkildə oxuyub, mənimsəyə bilirdilər. Düzdür, bu gün dil təliminin əsas məqsədi şagirdlərə nəzəri biliklər verməkdən və bu biliklər zəminində hər tərəfli nitq hazırlığı yaratmaqdan ibarətdir. Nəzərə alsaq ki, IX-XI sinif buraxlış imtanının ikincı turunda şagirdlər dil qaydalarından imtahan verirlər, dərsliklərin şagirdlərə dil qaydalarını öyrətmək üçün potensial imkanlarının artırılmasına ehtiyac vardır. Müəllif metodik vəsaitdə linqvistik sxemləri ardıcıl, əhatəli qurmaqla Azərbaycan dili tədrisində təlim keyfiyyətinin yüksəldilməsini diqqət mərkəzində saxlamışdır. Azərbaycan dili fənn kurikulumunun müəyyən məsələləri bir çox elmi-metodik qəzet və jurnallarda bir problem kimi öz əksini tapmışdır. "Kurikulum", "Azərbaycan məktəbi", "Elm,təhsil və həyat", "Təhsil", "Azərbaycan dili və ədəbiyyatın tədrisi" jurnallarında və "Azərbaycan müəllimi" qəzetində Azərbaycan dili fənn kurikulumu ilə bağlı xeyli məqalələr nəşr olunmuş və problemə müxtəlif yanaşmalar görürük.

Bakı şəhəri 5 № li məktəbin ibtidai sinif müəllimsəsi Sevil Haşımova "Ana dili interaktiv fəndir" məqaləsində qeyd edir ki, Ana dili fənninin interaktiv şəkildə tədris olunması fənnin daha maraqlı, məzmunlu və düşündürücü xarakter alamsına zəmin yaradır. Qeyd etməliyik ki, şagirdin düşündüyünü, eşitdiyini, gördüyünü sərbəst şəkildə dilə gətirməsi, nitq bacarıqlarının inkişafı, hal-hazırda Azərbaycan dili tədrisinin əsas qayəsidir və bu proses insanın bütün həyatı boyu davam edir. Şamaxı rayonu Laləzər kənd ümumi orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Xamid Kərimovun "Azərbaycan dilinin tədrisində yaradıcı təfəkkürün inkişaf etdirilməsi" adlı məqaləsində qeyd edir ki, bu günün şagirdi bütün həyatı boyu kreaktiv düşünməsilə özünə məxsusluğunu sübuta yetirə bilər. Qeyd edilir ki, şagirdin yaradıcı təfəkkürünün formalaşması üçün ilk növbədə, intellektual potensial, maraq, problemləri müxtəlif yollarla həll etmək istəyi olmalıdır [15,4]. Deməli, Azərbaycan dilini inkişaf etdirilməsi üçün yaradıcı təfəkkürün əsas komponentləri birləşməlidir. Şagirdin dünyagörüşü, çevikliyi, başqalarının fikrinə hörmət etmək, uydurmaq, tərtib etmək, mübaliğə etmək, minimuma endirmək qabiliyyətləri olmalıdır ki, müəyyən mövzu haqqında esse, inşa yaza bilsin. Məsələn, şagirdə "Mənim sevimli fəs-

lim" mövzusunda esse verilsə, şagirdin mütləq dünyagörüşü, fikirlərini maksimum həddə çatdırma, yəni mübaliğə etməyi bacarmaq qabiliyyəti olmalıdır. Müəllif "Dil qaydalarının bədii materiallar vasitəsi ilə mənimsədilməsi" məqaləsində klassik ədəbiyyat nümunələrinin qrammatikanın tədrisi üçün geniş material verməsindən bəhs edir. Qeyd edilir ki, indiki dərsliklərdə verilən mətnlərin heç də hamısı müasir dövrdə yaranan mətnlər deyil, xalqımızın yaratdığı atalar sözləri, nağıllar, əfsanələr, dastanlardan nümunələrdir. Klassik Azərbaycan şairlərinin müasir dövrlə səsləşən əsərlərdir [1,3].

Deməli, şagirdlərin nitqini inkişaf etdirmək üçün qrammatika dərslərini bədii əsərlərlə əlaqələndirməklə dil qaydalarını şagirdlərə daha yaxşı mənimsətmək olar. Məsələn, V sinifdə "Fonetika" bölməsinin tədrisi zamanı şagirdlərə sözlərin düzgün yazılış və tələffüz edilməsi vərdişlərini öyrətmək məqsədi ilə müəllim şagirdlərə bədii mətnlər üzərində işləmklə, cümlələrdə intonasiya və vurğunun düzgünlüyünə riayətlə bağlı xüsusi təlimatlar verməklə, şagirdlərdə ifadəli oxu vərdişlərinin inkişafını təmin edə bilər. Bakı şəhəri 136 №-li məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Vəfa Zeynalovanın "Azərbaycan dili dərslərində İKT-dən istifadə" məqaləsində İKT-nın Azərbaycan dili fəninin tədrisi prosesində köməkçı vasitə kimi əhəmiyyətindən bəhs olunur. Artıq müasir cəmiyyətimiz sürətlə informasiyalaşmağa doğru irəliləyir və bu kompüter texnologiyalarının təhsilə tətbiqi ilə səciyyələnir. Müəllif qeyd edir ki, dil təlimi prosesində dərsin keçirilmə mərhələsində müəllim:

-şəkillər, videolar vasitəsilə dərsi əyaniləşdirə;

-mühazirə zamanı slaydlardan istifadə;

-əvvəlcədən hazırlanmış testlərin köməkliyi ilə qiymətləndirmə aparıla bilər.[107]

Dil təlimində İKT-nın imkanlarından istifadə etməklə dil təlimində motivasiya mərhələsini maraqla şəkildə qurmaq mümkündür. Eyni zamanda, Azərbaycan dili təlimində İKT-dan istifadə edərək, orfoqrafiya və durğu işarələrindən yerində və düzgün istifadə etmə qaydalarına əməl etməyi öyrətmək mümkündür. Şagirdlər dərs zamanı ekranda müəllimin qəsdən buraxdığı səhvləri müstəqil şəkildə tapıb və düzəldirlər. Hər kəs səhvi birinci tapmaq istədiyi üçün dərsdə rəqabət yaranmış olur. Azərbaycan dili dərslərindən Power Point proqramından, kompyuter proyektor konfiqurasiyasından istifadə etməklə dərsin səmərəliliyini artırmaq mümkündür. Artıq 11 ildir ki, ölkəmizdə təlim prosesi fəal-interaktiv təlimin tələblərinə uyğun aparılır. Azərbaycan dili fənn kurikulumununun nəzəri əsaslarına aid əsas elmi-metodik vəsait 2015-ci ildə nəşr olunan "Azərbaycan Respublikasının ümümtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramaları"dır və digər elmi-metodik ədəbiyyatlar hazırlanarkən əsas mənbə kimi istifadə olunmuşdur. Azərbaycan dili fənn kurikulumuna fərqli yanaşmaları isə elmi-metodik jurnal və qəzetlərdə rast gəlinir.

**Ədəbiyyat**


1. AbdullazadəN. Milli Kurikulum: Azərbaycan dili linqvistik təhlildə. Bakı: "Müəllim", 2014, 180 s.
2. "Azərbaycan məktəbi" jurnalı, №1, 2017
3. Əşrəfov R. Azərbaycan dili tədrisinin aktual problemləri. -Sumqayıt: SDU, 2017, 365 s.
4."Kurikulum" jurnalı, № 2, 2010
5. Kurikulum jurnalı, № 4, 2013
6. Paşayev A. Cəfərova E. İnteraktiv təlim Azərbaycan və ədəbiyyat dərslərində. -Bakı: "Maarif", 2012, 379 s.

**Айсель Алекберли**

**Исследовании предметного курикулума Азербайджанского языка в научно-методических литературе**

**Резюме**

Показано что и научно-методической литературе, в журналах былы проведены исследования, прозвучали определенные высказывания про типичные предметного характерстики курикулума Азербайджанского языка, про его ролъ в обучение интерактивной полготовки.

**Aysel Alakbarli**

**Researching the subject curriculum of the Azerbaijani language in scientific-methodical literature**

**Summary**

The article talks about researching the subject curriculum of the Azerbaijani language in scientific-methodical literature. İt is started that researches were conducted on peculiar characteristics of the Azerbaijani language according to active and interactive teaching method in scientific methodological literature and magazines and the thoughts were expressed in this regard.